

# Dövlətimiz bütün problemlərin həllində həssas qrupların yanındadır



***Ölkəmizdə aparılan sosial siyasətin bir istiqaməti də şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının, əhalinin aztəminatlı təbəqəsinin, yəni, həssas qrupların sosial problemlərinin həllinə xüsusi diqqət göstərilməsidir. Prezident İlham Əliyevin tapşırığına əsasən, postmüharibə dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən şəhid ailələri, qazilər, müharibə əlilləri, erməni terrorundan zərər çəkənlər, onların yaxınları ilə bağlı icra olunan sosial dəstək tədbirləri artıq 26 min şəxsi əhatə edib. O cümlədən, bu tədbirlər çərçivəsində şəhid ailələri və müharibə əlillərindən ibarət 9 min 100 nəfərə 18 min 400 sosial ödəniş təyinatı həyata keçirilib. 7 mindən çox şəxsə sosial – psixoloji və reabilitasya yönümlü 10 min xidmət göstərilib. 140 hərbçi yüksək texnologiyalı müasir protezlə, 1200- ə yaxın müharibə əlili 8 min 800 - dən çox reabilitasiya vasitəsi ilə təmin olunub. Həmin kateqoriyalara aid şəxslərin məşğulluq məsələlərinin həlli sahəsində də müvafiq işlər aparılır. Onlardan 7 min 100 şəxs özünüməşğulluq və digər aktiv məşğulluq tədbirlərinə cəlb olunub.***

Eyni zamanda, ƏƏSMN tərəfindən bu ilin iyun ayında "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında başladılan "Məşğulluq marafonu"na qoşulan işəgötürənlərin sayı da artaraq 455-ə çatıb. Marafona qoşulmaqla şəhidlərimizin ailə üzvlərinin, Vətən müharibəsində yaralanmış qazilərimizin məşğulluğuna dəstəyini ifadə edən həmin işəgötürənlərin 234 - ü dövlət, 221-i özəl müəssisələrdir.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, işəgötürülənlər tərəfindən marafona 2044 vakant yer təqdim edilib. Bu vakansiyalar üzrə işlə təmin olunanların sayı artaraq 566-ya çatıb ki, onlardan 460-ı qazi, 106-sı şəhid ailəsi üzvləridir. Hazırda vakansiyalar üzrə işlərə göndərişlərin verilməsi prosesi davam edir. Marafona qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında tələb edilən məlumatları göstərdiyimiz – https://dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla qeyd edə bilərlər.

Nazirliyin tabeliyindəki DOST Agentliyinin DOST mərkəzlərində isə sentyabrın 1-də 500 mininci vətəndaş müraciəti qeydə alınıb. Bakının Binəqədi rayonunun sakini, Vətən müharibəsi iştirakçısı Elmir Bayramlı 4 saylı Bakı DOST Mərkəzindəki vahid əlaqələndirmə mərkəzinə ona aid müharibə veteranı adının və vəsiqəsinin verilməsi üçün müraciət edib. Beş yüz mininci vətəndaşın müraciəti ilə bağlı mərkəzdə keçirilən görüşdə DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov vurğulayıb ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq əhaliyə dövlət sosial xidmətlərinin vətəndaş məmnunluğuna uyğun təşkili agentliyin əsas fəaliyyət prinsipidir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası əmək, məşğulluq, əlillik, sosial təminat sahələri üzrə 152 növdə xidmətin "bir pəncərə"dən, tam şəffaf, operativ, vətəndaş rahatlığı və məmnunluğu prinsipinə uyğun təqdim edilməsinə imkan verib.

Mərkəzlərin xidmətindən faydalanan vətəndaşların sayının gündən-günə artdığını, həmin günün DOST Agentliyi üçün əlamətdar gün olduğunu qeyd edən F.Məmmədov deyib ki, 4 saylı Bakı DOST Mərkəzində sayca yarım milyonuncu vətəndaşa xidmət göstərilib. O, 500 mininci vətəndaşı təbrik edərək ona agentlik adından təşəkkürnamə və simvolik hədiyyələr təqdim edib. E.Bayramlı DOST mərkəzində göstərilən xidmətlərdən razı qaldığını və dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ və şəffaf təşkil olunduğuna görə təşəkkürünü bildirib.

Qeyd edək ki, 2019-cu ilin may ayından etibarən 5 DOST mərkəzi açılıb və paytaxtın 10 rayonu (Yasamal, Səbail, Qaradağ, Xəzər, Pirallahı, Nizami, Sabunçu, Suraxanı, Binəqədi və Nərimanov), eləcə də, Abşeron rayonu DOST xidmətləri ilə əhatə olunub. 2021-ci il üzrə vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi 98,1 faizdir. Gələcəkdə Bakıda və respublikanın regionlarında yeni DOST mərkəzlərinin açılması nəzərdə tutulub.

ƏƏSMN ilə sosial tərəfdaşlıq müstəvisində özəl sektorun sosial layihələrinin bir istiqaməti də tənha yaşlı və əlilliyi olan şəxslərə, aztəminatlı ailələrə yönəlib. Nazirliyin sosial tərəfdaşı "Paşa Holdinq" tərəfindən 2019 – 2021-ci illərdə mühüm dəstək tədbirləri həyata keçirilib. Şirkət əlilliyi olan şəxslərin BOCCİA İdman Federasiyasına da maliyyə dəstəyi göstərir.

Ali və orta ixtisas müəssisələrində ödənişli təhsil alan, görmə imkanı məhdud bir qrup tələbənin təhsil haqqını ödəyən "Paşa Holdinq" inklüziv teatr olan, fiziki məhdudiyyətli istedadlı insanların çalışdığı ƏSA teatrını da öz dəstəyi ilə təmin edib. Ötən il aztəminatlı ailələrə dəstək olaraq 7500 məktəbli forması təqdim edən şirkət bu il də 13 mindən çox aztəminatlı ailənin uşaqlarını məktəbli ləvazimatları ilə təmin edir. Hazırda çanta, məktəbli forması və digər zəruri məktəb ləvazimatları nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin əməkdaşları tərəfindən ailələrə çatdırılır.

"İSR Holding" də bu işlərdə yaxından iştirak edir. Şirkət ötən il 5000 aztəminatlı şəxsə müxtəlif növ geyim əşyaları təqdim edib.

Ötən il COVID – 19 pandemiyası ilə əlaqədar yaşı 65-dən yuxarı tənha vətəndaşların infeksiyadan qorunmaq üçün evdən bayıra çıxmadıqları dövrdə onlara evlərində sosial xidmətlərin operativ və səmərəli təşkilində "Azərmaş" ASC mühüm dəstək göstərdi. Şirkətdən bunun üçün 100 avtomobil ayrıldı ki, bu da önəmli sosial tərəfdaşlıq nümunəsi oldu.

Ölkədə həssas qruplardan olan şəhid ailələri və müharibə əlillərinin mənzillər və fərdi evlərlə təminatı işləri də davam edir. Belə ailələr üçün bu ilin sonunadək daha bir neçə çoxmənzilli yaşayış binası təqdim ediləcək. 2021-ci il üzrə onlara ümumilikdə 3 minədək mənzil və fərdi evin verilməsi təmin olunacaq. Qeyd edək ki, onlardan 1600 ailəyə evlərin açarları təqdim edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə bu il avqustun 26-da şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillər və avtomobillərin təqdim olunması ölkəmizdə bu kateqoriyalardan olan vətəndaşlara ən yüksək səviyyədə diqqət və qayğını ifadə edir. Dövlət başçısının tapşırığı ilə şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramının genişləndirilməsi işləri davam edəcək.

Qeyd edək ki, 2019–2021-ci illərdə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir olunaraq yenidən qurulmuş, ən müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilmişdir. Bu ilin sonunadək Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Qəbələ və Şəmkir Uşaq Reabilitasiya Mərkəzlərinin də istifadəyə verilməsi nəzərdə tutulur.

Hazırda 56 min şəxsi əhatə edən ödənişli ictimai işlər proqramının təkmilləşdirilməsi üzərində iş aparılır. Ödənişli ictimai işlərə cəlb olunanlar əsasən ilkin peşə hazırlığı olmayanlardır. Buna görə də onların proqram çərçivəsində bu və ya digər konkret peşə sahələri üzrə işlə təmin edilməklə həmin sahələrə aid ilkin peşə biliklərinə, bacarıqlara yiyələnmələrinə, beləliklə, bu bacarıqlar hesabına gələcəkdə müstəqil şəkildə öz işlərini qura bilmələrinə şərait yaradılması da hədəflərdən biridir.

Nazirlik tərəfindən həssas qrupların sağlamlıqlarının bərpası məqsədilə onlara diqqət davam edir. Bugünlərdə ƏƏSMN-nin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən müharibə əlilləri də daxil olmaqla daha 49 nəfər əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşaq Heydər Əliyev adına Beynəlxalq Hava Limanından Naxçıvan Muxtar Respublikasındakı sanatoriya–kurort və müalicə mərkəzlərinə yola salınıb. Sağlamlıq imkanları məhdud uşaqlar valideynlərindən birinin müşayiəti ilə göndəriliblər.

Agentlik tərəfindən verilmiş yollayışlar əsasında yola salınan şəxslərdən bir hissəsi xəstəliklərinə uyğun olaraq "Duzdağ" Fizioterapiya Mərkəzi və "Darıdağ" Arsenli Su Müalicəxanasında, digər hissəsi Naxçıvan Diaqnostika–Müalicə Mərkəzində bərpa–müalicə prosedurları keçəcəklər. Agentlik tərəfindən 2021-ci ilin ötən dövründə ümumilikdə 863 imtiyazlı şəxs yollayışla təmin olunaraq bərpa-müalicə prosedurlarına cəlb olunublar.

Beləliklə, inamla demək olar ki, ölkədə aparılan sosial siyasət həm də sosial cəhətdən köməyə ehtiyacı olan insanların problemlərinin həllinə yönəlib. Həssas qruplara aid edilən insanlar əmindirlər ki, istər sağlamlıq problemlərinin, istərsə də təhsil, işlə təminat, mənzil və digər məişət məsələlərinin nizamlanmasında Azərbaycan dövləti onların arxasındadır.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***